**UOT 784; 781**

# AZƏRBAYCANIN ŞİRVAN BÖLGƏSİNDƏ MUSİQİŞÜNASLIQ VƏ MUĞAM SƏNƏTİ HAQQINDA (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

**Könül ƏSƏDLİ***

***Açar sözlər:*** *Şirvan, mənəvi, ənənəvi, musiqi, muğam*

**Giriş**

XIX-XX əsrin əvvəllərində Şirvan bölgəsində mənəvi mədəniyyətin bir çox sahələrində olduğu kimi, musiqi də nəzərə çarpacaq dərəcədə inkişaf, tərəqqi ilə yadda qalmışdır. Şirvanın ənənəvi xalq çalğı alətlərinə simli alətlərdən tar, saz, ud, dambur, kamança daxildir. Nəfəs alətlərindən balaban, tütək, zurna, ney; dərili alətlərdən isə nağara, qaval, qoşa nağara, dümbək aiddir. Şirvanda musiqi sənəti spesifik xüsusiyyətləri ilə seçilən saz- balaban- nağara və qoşa nağara müştərəkliyi ilə seçilir və mükəmməl bir kompleks təşkil edir. İstedadlı müğənni (lirik tenor) Hacıbababəyov Hüseynağa milli tamaşalarda Məcnun, Kərəm, Əsgər ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", Ü. Hacıbəyov), Şah İsmayıl, Əlyar ("Şah İsmayıl", "Nərgiz", M. Maqomayev), Qərib ("Aşıq Qərib", Ü.Hacıbəyov), Xosrov ("Xosrov və Şirin", Niyazi) partiyalarını oxumuşdur.

XIX-XX əsrin əvvəllərində Şamaxı muğam məclislərində "Rast" dəstgahında ifa olunan şöbə və guşələrin sayı 21-ə çatdırılmışdır. Şirvanın tanınmış el sənətkarlarından biri olan, tanınmış xanəndə və musiqişünas, məşhur xanəndələrdənbiri kimi tanınmış Mirzə Məhəmmədhəsən İsmayıl oğluFələkzadə "Şur", "Şüştər", "Hümayun", "Rast" muğamlarını, xüsusilə "Mənsuriyyə" zərbi muğamını böyük məharətlə oxumuşdur. Xanəndə "Sarıtorpaq şikəstəsi"nin, xanəndələrin repertuarına daxil olmuş bir çox təsniflərin yaradıcısı hesab olunur.

**I Musiqi alətləri**

Musiqi sənəti bütövlükdə xalqın mənəvi dünyasının tərkib hissəsidir. Belə ki, musiqi mühitinin öyrənilməsi onun mənəvi mədəniyyətdə oynadığı rola aydınlıq gətirməyə, xalqınmilli təfəkkürünün ifadəsini əks etdirməyə imkan verir. Qədim Azərbaycan mədəniyyətinin, onun mənəvi aləminin, musiqi və tarixi- mədəni ruhunun yaranması, formalaşmasında şübhəsiz zəngin ədəbi ənənələrə malik Şirvan bölgəsinin də rolu vardır. Azərbaycanda bütün musiqi alətləri çalğı alətləri adlanır. "Çalğı"alətinin kökü "çal", "zərbə endir" mənası verir (2, s. 7).

Hal - hazırda Azərbaycanda xalq çalğı alətlərindən aşağıdakıların adlarını qeyd etmək olar:

Simlilərdən- tar, saz, kamança, qanun, ud, dambur;

Nəfəslə çalınanlardan- balaban, tütək, zurna, ney, tulum;

Dərililərdən (zərb alətləri)- nağara, qaval, qoşanağara, dümbək;

Özü səslənənlərdən- şaxşax, kaman və laqquti (5, s. 85).

Şirvanın ənənəvi xalq çalğı alətlərinə simli alətlərdən tar, saz, ud, dambur, kamança daxildir. Nəfəs alətlərindən balaban, tütək, zurna, ney; dərili alətlərdən isə nağara, qaval, qoşanağara,dümbək aiddir. Seyid Əzim Şirvaninin "Bahariyyə" şerində "nay" və "ney" sözləri işlədilir. Bu fakt sübut edir ki, Azərbaycanda bu adlar altında müstəqil çalğı alətləri mövcud olmuşdur. Bunlardan çoxu öz tərkiblərində müxtəlif çalğı alətlərini birləşdirən instrumental ansambl və duetlər təşkil edirdilər (2, s. 54). Balaban (balaman) nəfəslə çalınan qədim Azərbaycan musiqi alətidir. Fındıq, tut, qoz, yaxud ərik ağacından hazırlanır. Silindrik gövdəsi üzərində 9 dəlik (8-i ön, biri isə arxa tərəfdə) olur. Gövdəsinin baş tərəfinə isə qamışdan ikiqat dilçəkli yastı müştük taxılır. Buna görə də el arasında balabana yastı balaban deyilir. Yumşaq, təsirli, həzin tembri var. Balabandan həm solo alət kimi istifadə olunur, həm də xalq çalğı alətləri ansamblları və orkestrlərində, aşıq ansamblларında müşayiə-

**Tarix üzrə fəlsəfə doktoru, dosent. Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu*
*Email: feyakonul@rambler.ru*

tedici alət kimi o, əsasən, dəmsaz (ton əmələ gətirən) alət olaraq xüsusi yer tutur. Muğam ansamblına da balaban aləti daxil olunaraq, səslənməyə xüsusi tembr boyaları aşılayır (6, s. 37).

XIX XX əsrin əvvəllərində Şirvan milli musiqi sənətinə aid olan nəfəsli xalq alətlərindən biridir. Bölgədə balaban keçmişdə və indi toylarda geniş yayılmışdır.Azərbaycanda qədimdən geniş yayılmış, nəfəslə çalınan musiqi alətidir. Zurna böyük ziyafət, toy - düyündə daha çox çalınan musiqi alətidir. Əsasən, qoz, yaxudda ərik ağacından hazırlanır. Konusvari gövdəsinin ön tərəfində 7, arxa tərəfində bir dəlik var ki, bunlar lazımı vaxtda barmaqlarla örtülüb, açılır. Qara zurna, cürə zurna, asəfi zurna, əcəmi zurna kimi bir çox müxtəlif növləri var (8, s. 107). Zurna bölgənin xalq musiqi sənətində xüsusi yer tutmuşdur və Şirvanda daha çox toylarda çalınan (XIX-XX əsrin əvvəlləri) musiqi alətidir.

Qoşanağara Azərbaycan musiqi zərb alətidir. Üstünə keçi dərisi çəkilmiş və bir-birinə birləşdirilmiş, müxtəlif ölçülü iki çanaqdan ibarətdir. Kiçik çanağın diametri 110-140 mm, böyük çanağın diametri 240-280 mm-dir. Əvvəllər qoşanağaranın gövdələri tuncdan düzəldilirdi və yumşaq səs almaq üçün kəndirlə bir-birinə möhkəm sıxılırdı, taxta çubuqlarla və ya toxmaqla çalınırdı. Müasir qoşanağaranın gövdəsi qoz, yaxud tut ağacından düzəldilir. Güclü və təmiz səs alınması üçün üzünün dərisi dolama, yaxud çarpaz iplərlə tarım çəkilir, oda verilir (6, s. 115). Qoşanağara və nağara qədim musiqi mədəniyyətinə malik olan Şirvan bölgəsində çalğı alətləri sırasında əsaslı yertutan zərb alətlərindən biridir.Tarixi qaynaqlardan aydın olur ki, XII əsrdə saz olmuş, aşıq olmuşdur. Lakin o da bəllidir ki, sazın yarandığı, üstünlük qazandığı bir dövrdə də ozanlar qopuz çalmışlar. Deməli, ozanın və qopuzun ömrü birdən-birə sona çatmamış zaman - zaman, ara - sıra səslənmişdir. Qopuzun, hətta XVI əsrdə də səsləndiyi tarixi həqiqətdir (1, s. 227). Saz Azərbaycan qədim dartımlı musiqi alətidir. Çanağı iki yerə bölünmüş armudun bir hissəsi biçimində, qolu uzun olur. Qoluna 10-14 pərdə bağlanır. Əsas pərdələrdən hərəsinin öz adı var: baş pərdə, orta pərdə, şah pərdə, yastı pərdə, ayaq pərdə və beçə pərdə. Köklənmə cəhətinə görə saz simləri üç əsas qrupa ayrılır (6, s. 174). Sazçı çalğı zamanı simlərin eyni zamanda hamısını vurur. Bu isə ifa olunan əsas melodik xətt üçün kvarta-kvinta səslərindən ibarət daimi surətdə səslənən harmonik ton yaratmış olur. Sazın tembri çox məlahətlidir. Saz əsrlərdən bəri aşıq yaradıcılığının əsas musiqi aləti kimi səslənməkdədir (2, s. 65). Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şirvan bölgəsinin aşıq sənəti qədim kökləri və milli koloriti özündə əks etdirən bir mədəniyyət örnəyidir. Buna görə də saz bölgədə çox geniş yayılmış musiqi aləti olmuşdur.

Şamaxı, Göyçay, Kürdəmir, Ağdaş və adı çəkilən bölgənin digər rayonlarında tütək musiqi aləti geniş yayılmış musiqi alətidir. Verilən məlumata görə nəfəsli alətlər qrupuna daxil olan tütək ney nəfəsli musiqi alətindən sonra yaranmışdı. Tütək nəfəsli musiqi alətidir. Qarğı, ya da içi boş çubuqdan düzəldilir. Quş dimdiyi tərzində olan bir ucuna ağacdan yonulmuş tıxac nəsb olunur. Tütəyin qabaq (üst) tərəfində 7 dəlik açılır ki, bunların qapanıb açılması ilə də səslərin ucalığı dəyişir. Bir dəlikdə tütəyin dal (alt) tərəfində olur. Tütək əsas etibarı ilə çobanların daha çox çaldıqları musiqi alətidir (8, s. 167).

Tar mizrabla çalınan simli dartımlı musiqi alətidir. Azərbaycan tarı özünəməxsus quruluş, konstruksiyaya və bədii-texniki imkanlara malikdir. “Tar” sözünün mənası “sim” deməkdir. Müasir Azərbaycan tarı 11 simli, geniş səs diapazonuna və zəngin ifaçılıq imkanlarına malik alətdir. Milli musiqi ifaçılığında həm solo, həm də müşayiətçi alət kimi istifadə olunur. Muğam sənətində tar aparıcı alətdir (2, s. 191). XX əsrin əvvəllərində muğam məclislərində (Şirvanda) tar müşayiətedici çalğı aləti olmuşdur.

Şirvanda musiqi sənətində spesifik xüsusiyyətləri ilə seçilən digər alət yaylı – simli musiqi aləti kamançadır. Azərbaycanda, həmçinin Şirvanda bu musiqi alətinin tarıxi çox qədimlərə gedib çıxır:

Alman alimi və səyyahı Adam Oleari (1603-1671) 1636-cı ilin sonu Şlezviq - Holşteyn səfirliyinin katibi, sonralar isə müşaviri kimi Azərbaycana gəlmişdir. Onun 1638-ci ilin əvvəlində geriyə yolu yenə də bu ölkənin ərazisindən keçmişdi. O, əsasən Şamaxıda (4 aydan çox) və Ərdəbildə olmuş, Azərbaycanın musiqi alətləri haqqında qiymətli məlumat vermişdir (8, s. 86).Onun verdiyi məlumata görə Şamaxı xanının sarayında başına çalma qoyub,zolağlı xalat geymiş musiqiçilər sitraya bənzər alətlərdə (yəqin ki, qanun, çəng və santur) çalır və rəqqasları müşayiət edirdilər.

Rəqqasələr oynayanda isə onlar dəf (buben), balaban (fleyta), nağara (baraban) və uddan (lyutnya) istifadə edirdilər. Müxtəlif ziyafətlərdə ud, kamança və dəf səslənir, mahnılar ifa olunurdu. Küçə tamaşalarında (ilanın ovsunlanmasında) oxunan mahnı qamış tütəklə (fleyta) müşayiət olunurdu. Adam Olearinin qeydlərində zurna (röjok)və dəfin adına rast gəlinir (2, s. 46-47).

Şamaxıya yaxınlaşarkən səfirliyin üzvləri əllərində kərənay olan dörd süvari tərəfindən qarşılanır. Kərənay zahirdən aşağı tərəfi genişlənən mis borunu xatırladırdı və uzunluğu 4 dirsək (bir dirsək 0,5 m-dir) idi. Göstərilən musiqiçilərdən başqa adi balabançılar uzunsov küpə oxşayan barabanları atların belinin üstündən salladılmış bir neçə barabançı da vardı. Daha sonra əyri buynuz və əl barabanları (buben) olan bir neçə musiqiçi görünürdü. Adam Olearinin xatırladığı barabanlar yəqin ki, qoşa-köslər, əl barabanları dəflər, əyri buynuz isə şahnəfir olmuşdur. Şəhərə çatmağa dörddə bir mil qalmış onları qanun və santurda (orinijalda simbal), mis nimçələrdə (sinc), tütək (dudka) və digər“qəribə” alətlərdə çalan musiqiçilər dəstəsi qarşılamışdı.Səfirliyin üzvləri saray divarlarına yaxınlaşarkən divarın üstündə nağara (baraban), zurna (dudka) və kərənay (truba) çalanları görürlər (8, s. 86).

Ö.Çələbinin sözlərinə görə Rzaəddin Şirvani ud kimi arxaya əyilmiş kəlləsi olan şeşxana musiqi alətini icad etmişdi. Onun qolu udla müqayisədə daha uzun idi, gövdəsi isə balığın döş pərdəsi ilə örtülmüşdü. Fransız səyyahı Korneli de Brüin 1703-cü ildə Şamaxıda şahidi olduğu şənlikləri təsvir edir; “Əvvəl çoxlu atlı peyda oldu, onların arxasınca hər birinin sağ və sol böyürlərinə iki balaca bayraq bağlanmış 10 dəvə yeriyirdi.Bunların altısının üstündə təbil - bas adlandırılan litavralar var idi; litavraların dördü aşağı tərəfdən kəskin daralan qeyri - adi ölçüdə idi; hərdənbir dəvənin üstündə oturmuş litavraçı onları vurudu.Hər dəfə müəyyən vaxtdan sonra enli yolun kənarında dayanmış dörd çox uzun və ağzı geniş kərənayları çalırdılar. Onlardan bir az aralıdadörd qoboy (zurna) görünürdü” (8, s. 51-53).

Rus dövlətinin səfiri A.P.Volınski Şamaxıya gələrkən (1716- cı il sentyabrın 26- ı) onun kortejini qabaqda iki litavraçı müşayiət edirdi. Onların ardınca üç boruçalan gedirdi. Volınskinin səfirliyinin tərkibinə daxil olan Şotlandiyalı həkim Bel aşağıdakı maraqlı məlumatı verir: “Şəhərdən (Şamaxıdan) kənarda hansısa bir dağın üstündə çoxlu pəncərəsi və eyvanı olan kifayət qədər hündür tikili ucalır. Günəş çıxanda və batanda burada borulardan, qavallardan və tütəklərdən ibarət bir növ konsert olur (8, s. 53). Şamaxıdan 20 km aralıda Nağaraxana adı ilə tanınan bu təpə haqqında yazılmışdı: “Orada deyilənə görə şahzadə qızın litavraçılardan ibarət dəstəsi olurdu. Onlar litavra səsləri ilə ətraf əhalini xəbərdarlıq edirdilər. Litavra deyəndə birtərəfli nağara - nağarazən nəzərdə tutulur” (8, s. 53).

**II Xanəndələr**

Bölgənin görkəmli musiqi xadimlərindən olan Əbubəkir Şirvani nəinki Şirvanda, hətta zəngin Azərbaycanımızın hər yerində musiqi sənətinin bilicisi hesab olunmuşdur. İstedadlı, məşhur musiqişünas musiqi sənətinin bütün incəliklərinə, nəzəri cəhətlərinə dərindən bələd olmuş, bölgənin musiqi həyatında müstəsna rol oynamışdır (XII əsr).Azərbaycanın musiqi tarixində xüsusi rolu olan şöhrətli musiqişünasın gördüyü xidmətlər əvəzsizdir, çox təəssüf ki, onun bizə yalnız “Musiqi - İxvanus Səfa” əsəri qalmışdır.

Ağsulu yastı balaban ustası Kərimov Əli çağdaş Azərbaycan zurna - balaban məktəbi yaratmış və inkişaf etdirmişdir. Kərimov Əli Zülfüqar oğlu 1874-cü ildə Ağsu rayonunun Kalva kəndində dünyaya göz açmış və burada pərvazlanmışdır. Məşhur musiqişünasın ərsəyə gətirdiyi təkrarsız “Koroğlu nağarası” musiqi dünyamızın rəngarəngliyini duymağa, hiss etməyə imkan verir.El sənətkarı Əli Kərimov həmçinindərin məzmunlu, özündə ülvilik və gözəlliyi cəmləşdirən “Sərvəri”, “Alçagülü” və“Heyvagülü”, “Xırdaca”bəstələrinin müəllifidir.

Verilən məlumata görə görkəmli sənətkar Əli Kərimov o zamanın ünlü musiqişünas ədib və şairlərinin bir araya toplaşdığı məşhur “Beytüs Səfa” məclisinin üzvləri ilə, həmçinin, M.A.Bixud və M.Ə.Sabir ilə yaradıcılıq əlaqələrinə malik olmuşdur. Fəxredici hallardan biri də odur ki, o, Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə qara zurna ilə ilə çıxış etmiş, Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Ağsu Tarix Diyarşünaslıq Muzeyində mühafizə olunan, Əli Kərimova məxsus əşyalar və digər musiqi alətləri mənəvi mədəniyyətin tərkib hissələri kimi musiqi sahəsinin

öyrənilməsinə müsbət təsir göstərə bilər. İstedadlı Azərbaycan müğənnisi (lirik tenor) Hacıbabayev Hüseynağa Soltan oğlu 1898-ci ildə Şamaxıda anadan olmuşdur. Azərbaycan SSR-nin xalq artisti idi (1938). Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir (1928). 1910-cu ildən "Nicat" cəmiyyətinin nəzdindəki xorda oxumuş, 1913-cü ildən isə "Səfa" cəmiyyəti dram truppasının tamaşalarında çıxış etmişdir. 1916-cı ildən Azərbaycan musiqi truppası ilə Zaqafqaziya, Orta Asiya və İranın bir çox şəhərində qastrolda olmuş, əsasən qadın partiyalarını oxumuşdur: Leyli, Əsli, Gülçöhrə, Gülnaz ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", "O olmasın, bu olsun", Ü.Hacıbəyov) (7, s. 127). 1920-60-cı illərdə Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur. Nadir tembrli gözəl səsə, virtuoz vokal texnikasına malik olan Hacıbababəyov milli tamaşalarda Məcnun, Kərəm, Əsgər ("Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", Ü. Hacıbəyov), Şah İsmayıl, Əlyar ("Şah İsmayıl", "Nərgiz", M. Maqomayev), Qərib ("Aşıq Qərib", Ü.Hacıbəyov), Xosrov ("Xosrov və Şirin", Niyazi) partiyalarını oxumaqla yanaşı, klassik rus və Qərbi Avropa bəstəkarlarının operalarında da çıxış etmişdir – Almaviva, ("Seviliya bərbəri", C. Rossini). Hacıbababəyovun yaradıcılığı xanəndəlik, aşıq sənətinə xas vokal ifaçılıq xüsusiyyətləri, improvizasiya məharəti ilə fərqlənmişdir (7,s. 127). Hacıbababəyov Azərbaycan xalq mahnılarının, Azərbaycan bəstəkarlarının vokal əsərlərinin ifaçısı kimi də tanınmışdır. O, Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir (4, s. 416).Kərimov Əli Zülfüqar oğlu 1874-cü ildə Şamaxı qəzasının Kalva kəndində anadan olmuşdur. 1960-cı ildə vəfat etmişdir. Xalq ifaçısı və bəstəçi Ə.Kərimov XIX əsrin sonu, XX əsrin birinci yarısında zurna, balaban, tütək kimi nəfəsli alətlərdə çox böyük sənətkarlıqla çalmağı bacarmış, bu alətlərin imkanlarını texniki baxımdan genişləndirmişdir. Sənətkar ilk dəfə olaraq zil tembrli zurnanı peşəkar kamera alətinə çevirmişdir. Yalnız çalğıçı yox, həm də onlarla mahnının yaradıcısı, Azərbaycan milli musiqisinin inkişaf etməsində rol oynayan sənətkar olmuşdur. Qeyd olunmalıdır ki, Ə.Kərimov 70-ə qədər mahnının müəllifidir. Onun bəstələrinin çoxu Azərbaycan Dövlət Radiosunun qızıl fonduna daxil edilmişdir (7, s. 160).

Kalvalı Ə.Kərimov Azərbaycan aşıqlarının I və II qurultaylarının iştirakçısı olmuşdur. Kalva kənd Mədəniyyət Evinin bədii rəhbəri vəzifəsində çalışmışdır. Ustad sənətkar haqqında Bayram Hüseynli və Tahirə Kərimovanın yazdıqları "Əli Kərimov" kitabı 1984-cü ildə Moskvada nəşr edilmişdir. Qalib Soltanoğlunun Mədəniyyət və Turizm Nazirliyinin sifarişilə 2009-cu ildə ustad haqqında yazdığı "Asta çal balabanı" kitabı nəşr olunmuşdur. Verilən məlumata görə 1974 cü ildə Şamaxıda böyük ustadın 100illiyi təntənəli surətdə qeyd olunmuşdur. Şamaxıda Əli Kərimov adına küçə var. Görkəmli sənətkar Əli Kərimov "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur (9, s. 1).

Ağsu şəhər mədəniyyət sarayında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Müzeyinin Aran Regional Şöbəsi və Ağsu Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə xalq arasında Kalvalı Əli Dədə kimi tanınan zurna-balabanın mahir ifaçısı, ustad sənətkar Əli Kərimovun 135 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. Böyük Vətən müharibəsi illərində "Rəşadətli əməyə görə" medalı və "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Hələ sağlığında ikən onun yaradıcılığı araşdırmaçılar tərəfindən öyrənilmişdir.1984-cü ildə ustad haqqında Bayram Hüseynli və Tahirə Kərimovanın müəllifliyi ilə Moskvada "Ali Kerimov" kitabı çap olunmuşdur (9, s. 1).

2009-cu ildə isə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə araşdırmaçı Qalib Soltanoğlunun "Asta çal balabanı: Kalvalı Əli Dədə" kitabı buraxılmışdır. Əli Kərimovun mahnıları Azərbaycan milli radiosunun "Qızıl fondu"nda və Dövlət Səs Yazıları Arxivində qorunur. Ustad sənətkar barədə geniş məlumat, son araşdırmaların nəticələri barədə ətraflı məlumatlar verilən tədbirdə respublikamızın tanınmış xanəndə və aşıqlarının, balabançılarının, o cümlədən xanəndə Ağakərim Nafizin, aşıq Əhliman Şirvanlının, aşıq Vüqar Mahmudoğlunun, balabançı Zahid Zülfüqarovun və başqa ifaçıların ifaları dinləyicilərdə xoş təəssürat yaratmışdır (8, s. 143 ).

### III. Muğam sənəti

Çalan, çağıran, əsrarəngiz və ruhu qidalandıran Şirvan musiqi sənətini muğamsız təsəvvür etmək olmaz. Qeyri - adi, nüfuzedici və təkrarsız səsi, öz dəst xətti olan Şirvan muğam ustalarının şan - şöhrəti, ad- sanı nəinki bütün Şərqdə, hətta Avropada, uzaq Amerikada belə yayılmış, nüfuzedici

səsi ilə müxtəlif millətlərin insanlarını valeh etmiş, dərin ehtiramına səbəb olmuşdur. Bölgənin dünya şöhrətli muğam ustalarının oxuduqları “Şur”, “Rast”, “Mahur”, “Çahargah” və “Bayatı Şiraz” təkcə ölkəmizdə deyil, bütün dünyada xalqımıza başucalığı gətirmiş, bizə bəşəri şöhrət qazandırmışdır.Belə ki,muğam dəstgahını səciyyələdirən 3 şərt daim diqqət mərkəzində olmalıdır:

1. Məzmun, dərinlik, obrazlılıq.
2. Muğam dəstgahının tərkib hissələrini ardıcıl ifası.
3. Yüksək peşəkarlıq.

Muğamların adları bəzən həmin muğamın yarandığı yerin adı ilə adlandırılır. “Azərbaycan”, “Şirvani”, “Qarabaği”, “Qacari”, “Osmani”, “Şah Xətai” və s.

Şamaxı muğam məclislərində “Rast” dəstgahında ifa olunan şöbə və guşələrin sayı cəmi 21-ə çatdırılmışdır (3, s. 19).

Şirvanın tanınmış el sənətkarlarından biri olan tanınmış xanəndə və musiqişünas Mirzə Məhəmmədhəsən İsmayıl oğlu Fələkzadə XIX əsrin ortalarında Şamaxıda dünyaya gəlmiş, yaşayıb - yaratmışdır. Mirzə Məhəmmədhəsən şamaxılı mesenat Mahmud ağanın saray mühitində təşkil olunan muğam məclislərində püxtələşmiş, dövrünün məşhur xanəndələrindən biri kimi tanınmışdır (1, s. 193). Şirvan torpağının yetirməsi olan bu məşhur xanəndənin 1916 - cı ildə “Nalə” adlı məzmunlu şeirlər kitabı nəşr olunmuşdu. Mirzə Məhəmmədhəsən İsmayıl oğlu Şamaxılı (1851, Şamaxı – 1917, Şamaxı) xanəndə hesab olunur. Onun formalaşmasına Mahmud ağanın sarayında təşkil olunan muğam məclislərinin böyük təsiri olmuşdur. Onun ilk muğam müəllimi Kərbəlayı Əkbər Mahmud ağanın sarayında xanəndə idi. Belə ki, gənc Məhəmməd həsən dini mərasimlərdə iştirak etmiş, Kərbəlayı Əkbərdən muğam və təsnifləri dərindən öyrənmişdir. Onun istedadını dəyərləndirən Mahmud ağa onu öz sarayına dəvət etmişdir. O, burada püxtələşərək, inkişaf etmiş, dövrünün mahir xanəndələrindən biri kimi tanınmış, hətta muğam məclislərində Hacı Hüsü, Əbdülbaqi Zülalov kimi ustad xanəndələrlə yarışa girmişdi; muğamatı və poeziyanı dərindən bildiyinə və özü də şeirlər yazdığına görə onu Mirzə çağırırdılar (7, s. 199). Təkcə Azərbaycanda deyil, Zaqafqaziyanın hər yerində çox məşhurlaşmışdı. “Şur”, “Şüştər”, “Hümayun”, “Rast” muğamlarını, xüsusilə “Mənsuriyyə” zərbi muğamını böyük məharətlə oxumuşdur. Xanəndə “Sarıtorpaq şikəstəsi”nin, xanəndələrin repertuarına daxil olmuş bir çox təsniflərin yaradıcısı hesab olunur. Mirzə Məhəmmədhəsən həm də şair olmuşdur. Onun qəzəllərindən muğam ifaçılığında istifadə olunur. Ömrünün son illərində o, kor və kar olmuş, həyatı ağır ehtiyac içində keçmişdir.

O, bütün duyğularını öz şeirlərində təcəssüm etdirmişdir (7, s. 199). Təkcə Şirvanda deyil, bütün Azərbaycanda məşhur olan Mirzə Məhəmmədhəsən “Sarıtorpaq şikəstəsi”nin və bir çox təsniflərin müəllifi olmuşdur. “Hümayun”, “Şur”, “Şüştər” və “Rast” muğamlarını, “Mənsuriyyə” zərbi muğamını el şənlik və məclislərində böyük usta-lıqla oxuyan xanəndənin ifa tərzinin öz yeri, öz gözəlliyi var idi.

Şamaxı muğam məclisləri XIX əsrin II yarısında Şamaxıda məşhur mülkədar Mahmud ağa tərəfindən yaradılan və Şirvanda xanəndəlik sənətinin inkişafında mühüm rol oynayan musiqili poetik məclislərdir. Çox zaman Mahmud ağanın məclisi adlandırılırdı. Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Ərdəbilli Səttar, Sadıqcan, Cabbar Qaryağdı oğlu kimi dövrünün məşhur xanəndələri bu musiqi məclislərində iştirak etmişlər (6, s. 183).

**Nəticə**

Şamaxılı Alim Qasımov çağdaş Azərbaycan muğamının məşhur ifaçılarından sayılır.

Ta qədimdən dövrümüzədək elm, mədəniyyət mərkəzi sayılan Şirvan bölgəsinin musiqi sənəti nəinki Azərbaycanın, hətta müsəlman Şərqinin musiqi sənətinə nüfuz etmiş, onun inkişafında əhəmiyyətli rol oynamışdır.Musiqi bölgədə hər zaman uğurla inkişaf etmişdir. Milli musiqimizin inkişafında, həmçinin Azərbaycan musiqisinin parlaq nümayəndələrinin yetişməsində Şirvanın böyük rolu olmuşdur.

## ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. 3 cilddə, III cild. B., Şərq - Qərb, 2007, 543 s.
2. Abdullayeva S. Azərbaycan xalq çalğı alətləri. Musiqişünaslıq orqonoloji tədqiqat. B: Adiloğlu, 2002, 453 s.
3. Axundov İ. Azərbaycan muğamları. B: Mütərcim, 2015, 96 s.
4. Əsədli K. Azərbaycanın ictimai - siyasi və mədəni həyatında Şirvan bölgəsinin rolu (tarixi - etnoqrafik araşdırma) // Elmi araşdırmalar. B., 2013, №1. s. 411- 417.
5. Hikmətqızı Ş. Azərbaycan xalq çalğı alətləri. Mədəni həyat,20013, №12, s. 84-85.
6. Muğam ensiklopediyası. B: Musiqi dünyası, 2008, 215 s.
7. Şamaxı ensiklopediyası. B:Şərq - Qərb, 2015, 430 s.
8. Tağısoy N. Özü – sözü çeşmənin gözü. Birinci kitab. B.: Mütərcim, 2009. 177 s.
9. Ustad sənətkar Kalvalı Əli Kərimovun 135 illiyi qeyd edilmişdir. https://azertag.az/xeber

## *XÜLASƏ*

***Könül ƏSƏDLİ***

***Azərbaycanın Şirvan bölgəsində musiqişünaslıq və muğam sənəti haqqında (XIX-XX əsrin əvvəlləri)***

***Açar sözlər:*** *Şirvan, mənəvi, ənənəvi, musiqi, muğam*

XIX -XX əsrin əvvəllərində Şirvan bölgəsində musiqi sahəsi nəzərə çarpacaq dərəcədə inkişaf etmişdi. Şirvanın ənənəvi xalq çalğı alətlərinə simli alətlərdən tar, saz, ud, dambur, kamança daxildir. Nəfəs alətlərindən balaban, tütək, zurna, ney; dərili alətlərdən isə nağara, qaval, qoşa nağara, dümbək aiddi. Şirvanda musiqi sənəti spesifik xüsusiyyətləri ilə seçilən saz- balaban- nağara və qoşanağara müştərəkliyi ilə seçilir və mükəmməl bir kompleks təşkil edir. Nadir tembrli gözəl səsə, virtuoz vokal texnikasına malik olan Hacıbababəyov milli tamaşalarda Məcnun, Kərəm, Əsgər (“Leyli və Məcnun”, “Əsli və Kərəm”, “Arşın mal alan”, Ü. Hacıbəyov), Şah İsmayıl, Əlyar (“Şah İsmayıl”, “Nərgiz”, M. Maqomayev), Qərib (“Aşıq Qərib”, Ü.Hacıbəyov), Xosrov (“Xosrov və Şirin”, Niyazi) partiyalarını oxumaqla yanaşı, klassik rus və Qərbi Avropa bəstəkarlarının operalarında da çıxış etmişdir. Şamaxı muğam məclislərində “Rast” dəstgahında ifa olunan şöbə və guşələrin sayı cəmi 21-ə çatdırılmışdır. Bölgənin dünya şöhrətli muğam ustalarının oxuduqları “Şur”, “Rast”, “Mahur”, “Çahargah” və “Bayatı Şiraz” təkcə ölkəmizdə deyil, bütün dünyada xalqımıza başucalığı gətirmiş, bizə bəşəri şöhrət qazandırmışdır. Xanəndə Mirzə Məhəmmədhəsən “Sarıtorpaq şikəstəsi”nin, xanəndələrin repertuarına daxil olmuş bir çox təsniflərin yaradıcısı hesab olunur.

## *РЕЗЮМЕ*

***Кенул АСАДЛИ***

***О музыковедении и искусстве мугама в Ширванском регионе Азербайджана (XIX - начало XX вв.)***

***Ключевые слова:*** *Ширван, духовный, традиционный, музыка, мугам*

В XIX - начале XX веков, многие области духовной культуры в Азербайджане, в частности, музыка – характеризуются, в высшей степени, развитием и прогрессом. К традиционным народным инструментам Ширвана относятся такие струнные инструменты, как тар, саз, уд, дамбур, каманча. Духовые инструменты балабан, тутек, зурна, ней; к ударным кожаным инструментам относятсябарабан (нагара), флейты, двойной барабан (гошанагара),думбак.

Музыкальное искусство Ширвана отличается самобытным сочетанием саз-балабан и гоша-нагара, своими характерными особенностями образуют некий совершенный комплекс.

Талантливый певец (лирический тенор) Гаджибабабеков Гусейнага исполнял в национальных спектаклях партии Меджнуна, Керема, Аскера (“Лейли и Меджнун”, “Асли и Керем”, “Аршин мал алан”, У. Гаджибеков), Шаха Исмаила, Альяра (“Шах Исмаил”, “Наргиз”, М. Магомаев), Гариба (“Ашиг Гариб”, У. Гаджибеков), Хосрова (“Хосров и Ширин”, Ниязи). В XIX - начале XX веков количество шобе и гюше − разделов мугамного дастгяха “Раст”, исполняемых на меджлисах мугама в городе Шемахы, достигло 21. Мирза Мухаммадхасан Исмаил оглу Фалакзаде − один из известных народных мастеров Ширвана, прославившийся как певец (ханенде) и музыковед, с большим мастерством исполнял мугамы “Шур”, “Шуштар”, “Хумаюн”, “Раст" и, в особенности, мугам ритмических музыкальных ударов (зарб) − “Мансурийя”. Певец считается создателем многих таснифов (национальный музыкальный жанр Азербайджана) мугама “Сарыторпаг шикестеси”, которые включены в репертуары множества азербайджанских ханенде.


## *SUMMARY*

***Konul ASADLI***

### *Musicology and the Art of Mugham in the Shirvan Region of Azerbaijan (XIX - early XX centuries)*

***Key words:*** *Shirvan, spiritual, traditional, music, mugam*

The 19th and the beginning of the 20th centuries, as in many areas of spiritual culture in the Shirvan region, music was also remembered for its significant development and progress. Shirvan's traditional folk instruments include tar, saz, ud, dambur and kamancha. There were wind instruments such as balaban, tutek, zurna, ney, and that of leather including drums, drum, double-drum and dumbak. The art of music in Shirvan is distinguished by the combination of saz-balaban-nagara and double-nagara, which are distinguished by their specific features and form a kind of perfect complex. A talented singer (lyric tenor) Gadjibababekov Guseinaga performed in national performances the roles of Majnun, Kerem, Asker (“Leili and Majnun”, “Asli and Kerem”, “Arshin Mal Alan”, U. Hajibeyov), Shah Ismail, Alyar (“Shah Ismail”, “Nargiz”, M. Magomayev), Garib (“Ashig Garib”, U. Hajibeyov), Khosrova (“Khosrov and Shirin”, Niyazi).

In the 19th - early 20th centuries, the number of shobe and gyushe - sections of the mugham dastgah "Rast", performed at the mugam majlis in the city of Shemakhi, reached 21. Mirza Mahammadhasan Ismayil oglu Falakzadeh, one of the well-known folk artists of Shirvan, a well-known singer and musicologist, one of the famous singers, sang “Shur”, “Shushtar”, “Humayun”, “Rast” mughams, especially “Mansuriyya” mugam. The singer is considered to be the creator of "Saritorpaq shikestasi", and many other classifications included in the repertoire of singers.